# Avropa İttifaqının xilaskarını Avropa Parlamenti niyə düşmən elan edir?

## Xalqımızdan və dövlətimizdən Vətən müharibəsindəki qələbənin qisasını almağa çalışırlar

**Müstəqil qərar qəbul etmək iqtidarında olmayan, hər zaman müxtəlif siyasi mərkəzlərin aləti rolunu oynayan və insan haqları, demokratiya pərdəsi altında siyasi təxribatlar törətməklə məşğul olan korrupsioner Avropa Parlamenti (AP) bir daha ermənipərəst dairələrin oyuncağı olduğunu nümayiş etdirdi.**

Müxtəlif vaxtlarda olduğu kimi, növbəti dəfə də Azərbaycana qarşı riyakar siyasət həyata keçirən AP yenidən iddialarla dolu növbəti qərəzli kağız parçasını qəbul etdi. Lakin bu dəfə də hazırlanan "sənəd" Azərbaycan xalqı üçün heç də təəccüblü olmadı. Ölkə ictimaiyyətinə yaxşı bəllidir ki, Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra Avropa Parlamenti sanki Hayastan parlamentində komitə funksiyasını yerinə yetirir, bu ölkənin xarici işlər nazirliyinin layihələrini notarial qaydada "təsdiq edir".

Bir sözlə, AP Hayastan naminə Azərbaycanı birmənalı şəkildə gözdən salmaq üçün hər cür çirkin vasitələrə əl atır.

### Dünyanın şahidlik etdiyi həqiqətə göz yuman təşkilat

Hələ bu ilin yanvar ayında eyni məzmunlu kağız parçası qəbul edəndə hər kəsə bəlli oldu ki, bu təşkilat erməni təəssübkeşi olan siyasi mərkəzlər üçün alət rolunu oynayır. Heç bir əsasa, reallığa uyğun olmayan erməni yalanlarının, uydurmalarının və erməni saxtakarlığının müdafiəsinə qalxaraq sözün əsl mənasında riyakarlıq nümayiş etdirir.

Çox maraqlı suallar yaranır. Əgər bu qurum "həqiqətin carçısı"dırsa, onda nədən 30 il ərzində erməni faşizminin qanlı əməlləri, erməni vandallarının barbarlığı ilə bağlı bir dənə olsun belə qətnamə, hesabat qəbul etmədi?

Belə bir "mötəbər" beynəlxalq struktur Ermənistanın Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı zamanı öz yurd-yuvasından didərgin salınmış yüz minlərlə azərbaycanlının etnik təmizlənmə prosesinə niyə göz yumdu?

Dünya Azərbaycan kəndlərinin, şəhərlərinin darmadağın edilməsinə şahidlik edəndə Avropa Parlamenti nədən susdu?

Deyək ki, bunlar bir qədər arxada qaldı. Bəs indi bu beynəlxalq təşkilat Hayastanın Azərbaycan vətəndaşlarına qarşı mina terroruna nədən məhəl qoymur? Axı məhz müharibə bitdikdən sonra ermənilərin basdırdığı minaların




partlaması nəticəsində 300-ə yaxın azərbaycanlı həlak olub. Elə dünən, martın 16-da Ağdamda iki gəncin minaya düşərək həlak olması faktı da bunun real təsdiqidir. Bu, işğaldan azad edilmiş ərazilərdə Ermənistanın basdırdığı mina sahələrinin miqyası və kütləviliyi, mina terrorunun təzahürüdür.

Görünən odur ki, Azərbaycanın erməni vətəndaşlarının hətta hüquqlarının "pozulmasına" narahat olan bu təşkilat azərbaycanlının həlak olmasını faciə yox, adi hal kimi qəbul edir. Yaxud Hayastanın Qarabağdakı hazırkı hərbi təxribatlarını sakitcə izləyir və hətta İrəvanı erməni quldur dəstələrinin qalıqlarını bölgədən çıxarmağa çağırmağa belə cəhd etmir.

### Vaxtilə AP bu gün Avropanı qazla təmin edən "Cənub qaz dəhlizi"nin reallaşmasına qarşı çıxmışdı

Bu gün Avropa İttifaqının yaydığı bütün bəyanatlarda Azərbaycanın köhnə qitə üçün ümid yeri, respublikamızın Avropa ölkələrinin enerji təchizatında ən vacib ölkə olduğunun vurğulandığı halda bu təşkilat riyakarlığını davam etdirməkdədir.

Yeri gəlmişkən, vaxtilə Avropa Parlamenti qitənin özünün enerji təhlükəsizliyi üçün əhəmiyyəti zaman keçdikcə bilinən "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsinə qarşı da çıxmışdı. Bu gün Azərbaycan məhz bu layihə ilə Avropa ölkələrini qazla təmin edir və hətta təchizatı artırmaq üçün kəmərlərin daha da genişləndirilməsi barədə düşünür. Çünki Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb. Bunu 2022-ci il iyul ayının 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqləyir.

Martın 13-də Berlində Alnmaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşündə bu sənədin imzalanmasını dəyərləndirən Prezident İlham Əliyev dedi ki, imzalanma mərasimində Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen Azərbaycanı Avropa üçün enerji sektorunda etibarlı tərəfdaş adlandırıb.

Əlbəttə ki, Azərbaycanın nailiyyətlərinin bu cür qiymətləndirilməsi bizim üçün böyük qürurdur. Həqiqətən də, real hədəf olan yerdə Azərbaycan bir çox Avropa ölkəsini neft, neft məhsulları, neft-kimya məhsulları ilə təchiz edir.

Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə Azərbaycana qaz təchizatı və ya mövcud qaz təchizatının artırılması ilə bağlı 10-dan çox Avropa ölkəsindən müraciət olunub. Təbii ki, ölkəmiz də tərəfdaşlarının ehtiyaclarını qarşılamaq üçün lazımi addımlar atır. Çünki hazırda Azərbaycanın qaz təchizatının kifayət qədər şaxələndirilmiş coğrafiyası var.

Bəzi ölkələr artıq Azərbaycandan elektrik enerjisi və təbii qaz alır. Lakin Avropada yeni mənbələrdən təbii qaza olan tələbatın artması ilə əlaqədar hazırda Azərbaycan kəmər imkanlarını genişləndirməyi planlaşdırır. Belə ki, 16 milyard kubmetr tutumu olan TANAP-ın 32 milyard kubmetrədək, 10 milyard kubmetr tutumu olan TAP-ın isə 20 milyard kubmetrədək genişləndirilməsi nəzərdə tutulur. Bu, əlbəttə ki, Avropada qaza tələbatın artması ilə əlaqədardır.

Bundan əlavə, Azərbaycan yaxın zamanlarda Avropanı "yaşıl enerji" ilə də təmin etməyi planlaşdırır. Ötən ilin dekabr ayında Buxarestdə ölkəmizdən Avropaya "yaşıl enerji"nin ötürülməsi üçün Qara dənizin dibi ilə kabelin çəkilməsi üçün Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan saziş bunu təsdiq edən reallıqdır. Bu layihə "Cənub qaz dəhlizi"ndən fərqlənəcək. Çünki orada Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP var. Bu, Xəzər dənizində külək enerjisi stansiyalarından başlayan və Avropa istehlakçılarına xidmət edən vahid layihə olacaq. Qara dənizin dibi ilə ötürmənin birinci mərhələsində 4 qiqavatlıq güc nəzərdə tutulur.

Məhz bu layihələrin reallaşması bir daha təsdiq edir ki, Azərbaycan mövcud resursları ilə, həqiqətən də, Avropa üçün vacib enerji təchizatçısına çevriləcək.

### Azərbaycanın zəfərini həzm edə bilməyən bədxahların riyakarlığı

Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan bu qlobal layihələr ölkəmizin regionda əhəmiyyətini xeyli artırıb, Bakı üçün Avropanın enerji təhlükəsizliyinin təminatçısı statusunu möhkəm şəkildə təmin edib. Təkcə bu fakt onu göstərir ki, Avropa Parlamentinin Azərbaycana münasibətdə mövqeyi ölkəmizi Cənubi Qafqazda əsas strateji tərəfdaş hesab edən Avropa İttifaqının özünün siyasətinə ziddir.

Bütün bu reallıqların fonunda Avropa Parlamentinin dünyaya əyan olan erməni saxtakarlığının müdafiəsinə qalxması onun ikiüzlü simasını bir daha nümayiş etdirir. Həm də bu riyakar mövqe ondan xəbər verir ki, ölkəmizin 44 günlük müharibədə qazandığı zəfəri, Hayastanı döyüş meydanında darmadağın edərək torpaqlarını işğaldan azad etməsini bəlli ermənipərəst dairələr hələ də həzm edə bilmirlər.

Eyni zamanda həmin siyasi dairələr Azərbaycanın Vətən müharibəsindən sonra daha da güclənməsini, həm bölgədə, həm də beynəlxalq arenada mövqelərini möhkəmləndirməsini, dünyada söz sahibi olmasını qəbul edə bilmirlər, qısqanclıqla qarşılayırlar. Onu da yaxşı bilirlər ki, Azərbaycan tezliklə Hayastanı üçtərəfli bəyanatların tələblərini yerinə yetirməyə məcbur edəcək.

Bir sözlə, Avropa Parlamentinin yalan, böhtan və riyakarlığa sadiqliyinin bu səviyyədə nümayişi insanı dəhşətə gətirir. İşğalçıya "gözyaşı" axıtması, qəsbkara qahmar çıxması, onu dəstəkləməsi, onun barbar, vandal əməllərini "görməməsi" bu qurumun fəaliyyət prinsipləri barədə aydın təsəvvür yaradır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.-2023.-17 mart.-S.9.